**Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanı - “Ay-Ulduz” medalı təsis edilsin.
2. “Ay-Ulduz” medalının şəkli və təsviri təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 7 iyul 1992-ci il**
**№ 201**

**“Azərbaycanın Milli Qəhrəmanı” adı haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

“Azərbaycanın Milli Qəhrəmanı” adı haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 15 iyul 1992-ci il**
**№ 209**

**“Azərbaycanın Milli Qəhrəmanı” adı haqqında**
**ƏSASNAMƏ**

1. “Azərbaycanın Milli Qəhrəmanı” adı respublikanın ən yüksək fərqlənmə dərəcəsidir, Azərbaycan Respublikasının müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir.
2. “Azərbaycanın Milli Qəhrəmanı” adı Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun öz təşəbbüsü ilə və ya irəli sürülmüş vəsatətlərə əsasən verilir.
3. Azərbaycanın Milli Qəhrəmanına aşağıdakılar təqdim edilir:
   - xüsusi fərqlənmə nişanı - səkkizguşəli “Qızıl Ulduz” medalı;
   - “Azərbaycanın Milli Qəhrəmanı” adının verilməsi haqqında Fərman.
4. “Azərbaycanın Milli Qəhrəmanı” adı eyni şəxsə bir dəfə verilir.
5. Azərbaycanın Milli Qəhrəmanı qanunvericiliklə müəyyənləşdirilmiş güzəştlərdən istifadə edir.
6. “Qızıl Ulduz” medalı döşün sol tərəfinə, digər orden və medallardan yuxarıda taxılır.
7. “Azərbaycanın Milli Qəhrəmanı” adı almış şəxslər həmin addan yalnız Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məhrum edilə bilərlər.

*Azərbaycan Respublikasının 1998-ci il 6 fevral tarixli 429- IQD saylı Qanunu ilə təsdiq edilmişdir*

**Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. “Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanı təsis etmək haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 13, maddə 492) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci və 2-ci bəndlərdə “Ay-Ulduz” sözləri “Qızıl Ulduz” sözləri ilə əvəz edilsin.
2. Həmin Qanuna əlavə olunmuş “Ay-Ulduz” medalının təsviri aşağıdakı redaksiyada verilsin:

“Qızıl Ulduz” medalının təsviri

“Qızıl Ulduz” medalı üz tərəfində ikiüzlü hamar şüalar olan, 31,5 mm qabarit ölçülü səkkizguşəli ulduzdan ibarətdir, sarı qızıldan hazırlanmışdır.

Arxa tərəfi hamar səthlidir, ortasında “Azərbaycanın Milli Qəhrəmanı” sözləri yazılmışdır. Yuxarı şüanınküncündə medalın nömrəsi həkk olunmuşdur.

Medal ilgək və halqa vasitəsilə ölçüsü 27 mm x 20 mm olan Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərinə uyğun üçrəngli beşkünc xara lentə birləşdirilmişdir. Lentin yuxarı kənarında qızıl suyuna çəkilmiş ensiz metal lövhə və paltara bərkidilmək üçün element vardır.

Medala üzərində Azərbaycan Respublikasının Dövlət bayrağı təsvir edilmiş, paltara bərkidilmək üçün elementi olan 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur”.

II. “Azərbaycanın Milli Qəhrəmanı” adı haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ilə (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 13, maddə 500) təsdiq edilmiş “Azərbaycanın Milli Qəhrəmanı” adı haqqında Əsasnamədə aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü bəndin ikinci abzası aşağıdakı redaksiyada verilsin:
 “xüsusi fərqlənmə nişanı — səkkizguşəli “Qızıl Ulduz” medalı;”
2. 6-cı bənddə “Ay-Ulduz” sözləri “Qızıl Ulduz” sözləri ilə əvəz edilsin.

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

***Bakı şəhəri, 6 fevral 1998-ci il.***
***N 429-IQD.***

*Azərbaycan Respublikasının 1998-ci il 6 fevral tarixli 429- IQD saylı Qanunu ilə təsdiq edilmişdir*

**"Qızıl Ulduz" medalının təsviri**



"Qızıl Ulduz" medalı üz tərəfində ikiüzlü hamar şüalar olan, 31,5 mm qabarit ölçülü səkkizguşəli ulduzdan ibarətdir, sarı qızıldan hazırlanmışdır.

Arxa tərəfi hamar səthlidir, ortasında "Azərbaycanın Milli Qəhrəmanı" sözləri yazılmışdır. Yuxarı şüanın küncündə medalın nömrəsi həkk olunmuşdur.

Medal ilgək və halqa vasitəsi ilə ölçüsü 27 mm x 20 mm olan Azərbaycan Respublikası Dövlət bayrağının rənglərinə uyğun üçrəngli beşkünc xara lentə birləşdirilmişdir. Lentin yuxarı kənarında qızıl suyuna çəkilmiş ensiz metal lövhə və paltara bərkidilmək üçün element vardır.

Medala üzərində Azərbaycan Respublikasının Dövlət bayrağı təsvir edilmiş, paltara bərkidilmək üçün elementi olan 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur".